## Qərar № 30/213

# 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 7 oktyabr 2015-ci il tarixli 50 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mursaliyev Azad Oktay oğlu 7 oktyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarını mübahisələndirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizəd A.O.Mursaliyev müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, həmin dairənin ərazisində seçici imzaları toplanaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədlər dairə seçki komissiyasına təqdim edilmiş, lakin dairə seçki komissiyasının müvafiq qərarı ilə əsassız olaraq onun namizəd kimi qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş A.O.Mursaliyevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, namizəd öz gəlirləri barədə seçki sənədlərinə düzgün məlumat daxil etməmiş və təqdim edilən etibarlı imzaların sayı namizədin qeydə alınması üçün kifayət etməmişdir.

Deputatlığa namizəd A.O.Mursaliyev ilə əlaqə saxlanılmış, ona əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüquqlarının olması izah edilmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 8 oktyabr 2015-ci il tarixli rəydən görünür ki, namizəd təqdim etdiyi sənədlərdə mülkü hüquqi müqavilədən gəlir əldə etmiş, lakin öz gəlirinin miqdarı və mənbələrini gizlədərək bu barədə müvafiq seçki sənədinə düzgün məlumat daxil etməmişdir.

Beləliklə, namizəd Seçki Məcəlləsinin 58.1.4-cü və 60.2.3-ci maddələrinin tələbinə uyğun olaraq zəruri seçki sənədinə düzgün məlumat daxil etmədiyindən onun namizəd kimi qeydə alınmasından imtina edilməlidir.

Belə olan halda namizədin müdafiəsi üçün təqdim edilmiş seçici imzalarının yoxlanılmasına zərurət qalmamışdır.

Qeyd olunanlara əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 57 saylı Kürdəmir seçki dairəsi dairə seçki komissiyasının A.O.Mursaliyevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 5 oktyabr 2015-ci il tarixli 22/56 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 58.1.4-cü, 60-cı, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mursaliyev Azad Oktay oğlunun 7 oktyabr 2015-ci il tarixli 50 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 5 oktyabr 2015-ci il tarixli 22/56 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

***09.10.2015***